# Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz sahibidir



**Sosial şəbəkələr bu günlərdə Misirin nüfuzlu "Əl-Məsriyyə" qəzetində dərc olunmuş bir məqaləni paylaşmışlar. Həmin məqalədə Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzundan bəhs olunur. Müəllif qeyd edir ki, beynəlxalq münasibətlərin fəal iştirakçısı, böyük nüfuz sahibi olan Azərbaycan öz xarici siyasətində beynəlxalq hüququn əsas prinsip və normalarına, o cümlədən ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət, başqa dövlətlərin daxili işlərinə qarışmamaq kimi prinsiplərə riayət olunmasına sadiqdir. Azərbaycanın Qoşulmama Hərəkatının üzvü olması və bu hərəkatda fəal iştirakı sayəsində hazırda Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində bu ölkənin mövqeyi daha artıq dəstəklənir.**

Azərbaycanın beynəlxalq aləmdəki reytinqinin getdikcə yüksəlməsini, dünya birliyində söz sahibinə çevrilməsini əks etdirən belə faktlardan çox göstərmək olar. Təbii ki, bu fikri bildirənlər konkret faktlara əsaslanırlar. Artıq beynəlxalq aləmdə də tanınmış ekspert, siyasi şərhçi və diplomatlar da etiraf edirlər ki, Azərbaycanla təzyiq və təhdidlə danışmağın heç bir mənası yoxdur. Bunu ölkəmizdə səfərdə olmuş AŞPA prezidenti Lilian Mori Paske də etiraf etmişdir. Bildirmişdir ki, bu qurumla Azərbaycanın əlaqələrinə qərəzlə yanaşanlar unudurlar ki, tərəflər arasında mövcud olan faydalı əməkdaşlıq qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Bunu Avropa Şurasının rəhbərliyi də yaxşı dərk edir. Avropalı diplomat rəhbərlik etdiyi qurumun və onun institutlarının Azərbaycanla əməkdaşlıqda təkid və yaxud hansısa təzyiq üsulu ilə davranmağın mənasız, məntiqsiz olduğunu anladığını, əlaqələri açıq dialoq və siyasi anlaşma şəraitində davam etdirməkdə maraqlı olduğunu diqqətə çatdırıb.

Beynəlxalq aləmdə kifayət qədər tanınmış diplomatların ölkəmiz haqqında belə yüksək fikir səsləndirmələri təsadüfi deyil. Bunun əsas səbəblərindən biri son 16 ildə ölkəmizdə həyat səviyyəsinin yaxşılaşdırılması, iri infrastruktur layihələrinin reallaşdırılması, demokratik prinsiplərin inkişafına xüsusi önəm verilməsi və beynəlxalq aləmin diqqət mərkəzində olan digər sahələr istiqamətində ardıcıl tədbirlərin görülməsi və böyük irəliləyişlərin əldə edilməsidir. Bunu ölkəmizin bugünkü reallıqlarına diqqət yetirməklə də aydın görə bilərik. Bu reallıqlar da təsdiqləyir ki, Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tuta bilib. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan regional sabitlik və inkişaf amilinə çevrilib.

Son 16 ildə sürətli sosial-iqtisadi, mədəni-mənəvi inkişafı, xarici siyasətdəki uğurları, beynəlxalq terrorizmə qarşı mübarizədə verdiyi töhfələri ilə regionun iqtisadi, mədəni, o cümlədən elmi-intellektual mərkəzinə çevrilən Azərbaycan artıq müasir dünyanın ən aktual problemlərinin müzakirə olunduğu beynəlxalq tədbirlərə evsahibliyi edir. Son illər ölkəmizdə keçirilən əhəmiyyətli tədbirlər, görüşlər, mədəniyyətlər və sivilizasiyalararası dialoqlar sivil dünyanın nüfuzlu elmi, mədəni, siyasi elitasını Bakıda bir araya gətirir. Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artmasına böyük təsir göstərməklə yanaşı, dövlətimizin başçısının da dünya birliyində şəxsi nüfuzunun artmasına gətirib çıxarıb və möhtərəm Prezidentimizin regionda lider olduğunu təsdiqləyir. Hər bir soydaşımızı sevindirən və qürur yaradan hisslər Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir.

İnamla deyə bilərik ki, Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət məhz bu əsaslar üzərində qurulmuş, ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri daha da möhkəmlənmişdir. Bütün bunlar isə diplomatik reallıqlar fonunda respublikamızın imicini xeyli yüksəltmişdir.

Bu faktı bir həftə əvvəl ölkəmizdə səfərdə olmuş Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşu da etiraf etdi . O, keçirdiyi görüşlərdə ümummilli lider Heydər Əliyev tərəfindən müasir Azərbaycan dövlətçiliyinin əsasının qoyulduğunu və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə siyasi sabitliyin hökm sürdüyünü qeyd etdi. Ölkəmizdə sosial-iqtisadi sahədə əldə edilmiş böyük uğurlar münasibətilə təbriklərini də çatdırdı.

Hazırda dünyanın inkişaf etmiş dövlətlərindən biri olan Çin Xalq Respublikası ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə olmasının da əsas səbəbinin düzgün müəyyənləşdirilmiş siyasi strategiya olduğunu bildirən Li Canşu əlaqələrin möhkəmləndirilməsində son illərdə iki ölkə liderləri arasında çoxtərəfli müstəvidə xeyli görüş keçirilməsinin böyük rolunu da diqqətə çatdırdı. O, dövlətimizin başçısı ilə keçirdiyi görüşdə dedi ki, Siz birlikdə Çin–Azərbaycan münasibətlərinin yüksək səviyyədə inkişaf etməsinə rəvac verirsiniz. Eyni zamanda, Siz öz aranızda çox yaxşı işgüzar münasibətlər və şəxsi möhkəm dostluq yaratmısınız. Düşünürəm ki, məhz Sizin uzaqgörənliyiniz, eləcə də strateji istiqamət sayəsində dövlətlərimiz tərəfindən Çin–Azərbaycan münasibətləri möhkəm, sağlam və sabit inkişaf edir. Bununla da bizim münasibətlərimiz nümunəvi dövlətlərarası münasibətə çevrilib. Onu da qeyd edək ki, dövlətimizin başçısı "Bir kəmər, bir yol" sammitinə xüsusi dəvət olunmuşdu və Cənubi Qafqazdan dəvət olunan yeganə dövlət başçısı idi.

Son illər bir-birinin ardınca qazanılan uğurlar respublikamızın beynəlxalq aləmdəki nüfuzunu daha da yüksəldib və ölkəmizi dünyanın qüdrətli dövlətləri sırasına qoşub. Xüsusilə, diplomatik sahədə əldə olunan uğurlar Azərbaycanın Avropaya və dünya birliyinə inteqrasiyasını daha da sürətləndirib. Son illər baş verən hadisələr də təsdiqləyir ki, ölkəmizlə sıx münasibətlər qurmaq istəyən dövlətlərin sayı ildən-ilə artır. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məntiqli xarici siyasət dövlətimizi dünya birliyində söz sahibi edib.

Dünya siyasətini istiqamətləndirən böyük dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, respublikamızda həyata keçirilən mütərəqqi iqtisadi, siyasi, hüquqi islahatlar barədə dolğun təsəvvür yaratmaq, xaricdə güclü diaspor və lobbi formalaşdırmaq qarşıya qoyulan mühüm vəzifələrdəndir. Təsadüfi deyil ki, dünyanın iki nəhəng və üz-üzə dayanan tərəfləri öz aralarındakı və dünyadakı problemləri həll etmək üçün məhz Azərbaycan paytaxtını məkan kimi seçirlər. Bakı vacib beynəlxalq məsələlərin müzakirə məkanına çevrilib.

Dünyanın iki çox böyük hərbi gücünün Bakıda qlobal əhəmiyyətli məsələləri müzakirə etməsi adi hadisə deyil. Bu görüş ondan xəbər verir ki, artıq Azərbaycan müstəqil dövlət kimi böyük nailiyyətlər əldə etməkdədir və beynəlxalq aləmdə onun nüfuzu sürətlə artır. Azərbaycan sabit ölkə və etibarlı tərəfdaş dövlət kimi artıq dünya birliyində də öz təsdiqini tapıb. Bütün bunların fonunda ABŞ və Rusiyanın mühüm məsələləri Bakıda müzakirə etmələri normal görünür. Rusiya və NATO-nun ali hərbi rəhbərliyinin görüşünün artıq 4-cü dəfə Bakıda keçirilməsi böyük əhəmiyyət kəsb edir. Bu, ilk növbədə, Azərbaycana çox böyük inamın olmasından xəbər verir. Digər tərəfdən, Azərbaycan dövlətinin həm Rusiya ilə strateji tərəfdaşlıq, həm də NATO ilə inkişaf edən münasibətlərinin olması bu görüşlərin paytaxtımızda keçirilməsində böyük rol oynayıb. Məlum olduğu kimi, ölkəmiz NATO-nun bir sıra proqramlarının fəal iştirakçısıdır, Əfqanıstanda sülh proseslərinə dəstək verən dövlətlərdəndir.

Ölkəmizin belə mühüm əhəmiyyətli görüşlərə evsahibliyi etməsi beynəlxalq aləmdə də yüksək dəyərləndirilir. Bunu Türkiyənin vitse-prezidenti Fuat Oktayın dedikləri də təsdiqləyir: "Azərbaycanın bundan sonra da inkişaf yolunda olacağına əminik. İqtisadi inkişaf, həyata keçirdiyi böyük sosial-iqtisadi islahatlar və mühüm beynəlxalq tədbirlərə evsahibliyi Azərbaycanı bölgədə örnək ölkəyə çevirib". Ölkəmizdə həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülüb və böyük irəliləyişlər əldə edilib. Azərbaycanın bugünkü reallıqlarına nəzər salsaq, görmək olar ki, ölkə, sözün əsl mənasında, müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tuta bilib. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan regional sabitlik və inkişaf amilinə çevrilib. İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzu həm ölkəmizi gücləndirir, həm də regionda gedən proseslərə müsbət təsir göstərməkdədir.

Azərbaycan vətəndaşları gələcəyə böyük ümidlərlə və nikbinliklə baxırlar. Bu gün müstəqil ölkəmizdə dövlət başçısı tərəfindən aparılan siyasət Azərbaycan xalqının maraqlarına tam şəkildə cavab verir.

***Əliqismət BƏDƏLOV,***
***Elşən Ağalar (foto)***
***"Xalq qəzeti"***